# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**“Cinayət prosesini həyata keçirən orqana çağırış vərəqələrinin formaları”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1061-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 26 yanvar tarixli 2457 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Cinayət prosesini həyata keçirən orqana çağırış vərəqələrinin formaları” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 22 aprel 2024-cü il

№ 223

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 22 aprel
tarixli 223 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Təqsirləndirilən şəxsin cinayət prosesini həyata keçirən orqana (məhkəmələr istisna olmaqla)

## ÇAĞIRIŞ VƏRƏQƏSİ

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
(təqsirləndirilən şəxsin soyadı, adı, atasının adı)

____________________________________________________________
____________________________________________________________
(təqsirləndirilən şəxsin ünvanı (olduğu yer)

Azərbaycan Respublikasının____________________________________
____________________________________________________________
____________________________________________________________
(cinayət prosesini həyata keçirən orqanın adı, ünvanı, əlaqə məlumatları
(indeks, telefon, faks və s.)

____________________________________________________________
____________________________________________________________
(təhqiqatçının, müstəntiqin və ya prokurorun soyadı, adı, vəzifəsi)

Təqsirləndirilən şəxs __________________________ tarixdə __________
(soyadı, adı, atasının adı)
________________ saatda __________ yerə gəlməyiniz xahiş olunur.*

Cinayət prosesini həyata keçirən orqana gəlməməyiniz ___________ nəticələnə bilər.

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
(təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş ittihamın mahiyyəti)

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 150.1-ci maddəsinə əsasən cinayət işi üzrə toplanılmış sübutlar şəxsin cinayət qanununda nəzərdə tutulmuş əməli törətməsini ehtimal etməyə əsas verdikdə və bu şəxs başqa ərazidə yaşadıqda, yaxud onun olduğu yer məlum olmadıqda, müstəntiq və ya prokuror həmin şəxsin tutulması barədə qərar çıxara bilər. Cinayət prosesini həyata keçirən orqandan gizlənən və ya çağırışa gəlməkdən qəsdən boyun qaçıran şəxsə ittiham elan etmək üçün onun tutulması haqqında qərar çıxarıldıqda, müstəntiq və ya prokuror, eyni vaxtda həmçinin həmin şəxsin axtarışını elan edir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 151.3-cü maddəsinə əsasən qətimkan tədbirinin şərtlərini pozaraq cinayət prosesini həyata keçirən orqandan gizlənən və ya çağırışa gəlməkdən qəsdən boyun qaçıran şəxsin tutulması barədə qərar çıxarıldıqda, müstəntiq və ya prokuror, eyni vaxtda həmçinin həmin şəxsin axtarışını elan edir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 178.2-ci maddəsinə uyğun olaraq Sizə xəbərdarlıq edilir ki, cinayət prosesində iştirak edən və cinayət prosesini həyata keçirən orqana çağırılan şəxs (14 yaşınadək olan şəxslər, hamilə qadınlar, ağır xəstələr istisna olmaqla) cinayət prosesini həyata keçirən orqanın məcburi çağırışına üzrlü səbəb olmadan gəlmədikdə, cinayət prosesini həyata keçirən orqanın çağırışını almaqdan boyun qaçırdıqda, cinayət prosesini həyata keçirən orqandan gizləndikdə və daimi yaşayış yeri olmadıqda həmin şəxsə məcburi gətirilmə tətbiq edilə bilər.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 467-13-cü maddəsinə əsasən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100–119, 137, 144, 145, 178, 179, 182, 193-1, 204–206, 206-1, 208, 214–219-1, 228, 274–283-1, 308–314-3, 318, 318-1, 319 və 324-cü maddələri, eləcə də həmin maddələrlə yanaşı eyni bir cinayət işi çərçivəsində cinayətlərin məcmusu üzrə həmin Məcəllənin digər maddələri ilə ittiham olunan təqsirləndirilən şəxsin Azərbaycan Respublikası ərazisindən kənarda istintaqdan və ya məhkəmədən gizləndiyi və ya çağırışa gəlməkdən qəsdən boyun qaçırdığı üçün cinayət prosesində şəxsən iştirakının təmin edilməsi mümkün olmadıqda onun barəsində cinayət təqibi qiyabi icraat qaydasında aparıla bilər.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 467-13-cü maddəsi ilə müəyyən edilmiş hallarda təqsirləndirilən şəxs barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarıla bilər.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 467-13.3-cü maddəsinə əsasən təqsirləndirilən şəxs qiyabi icraatda özünün seçimi əsasında müdafiəçi vasitəsilə təmsil olunmaq hüququndan istifadə etmək istədiyi halda, müdafiəçisi barədə məlumatları cinayət prosesini həyata keçirən orqana göndərməlidir.

Çağırılan şəxs üzrlü səbəbdən çağırışa gələ bilmədikdə bu barədə dərhal cinayət prosesini həyata keçirən orqana məlumat verməli, çağırışa gəlməməsinə səbəb olan üzrlü halları təsdiq edən dəlilləri təqdim etməlidir.

Cinayət prosesini həyata keçirən orqana çağırılan şəxs şəxsiyyətini təsdiq edən sənədini təqdim etməlidir.

*Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 54-2.7-ci maddəsinə əsasən həbs yerlərində saxlanılan şübhəli və təqsirləndirilən şəxslər həbs yerinin müdiriyyəti vasitəsilə çağırılırlar.

*****Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 54-2.8-ci maddəsinə əsasən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxslər onların qanuni nümayəndələri vasitəsilə çağırılırlar.

**Qoşma:** hüquq və vəzifələrin izahına dair Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsindən çıxarış.

**İmza:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 22 aprel tarixli 223 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

**Şübhəli şəxsin cinayət prosesini həyata keçirən orqana (məhkəmələr istisna olmaqla)**

## ÇAĞIRIŞ VƏRƏQƏSİ

____________________________________________________________

____________________________________________________________

(şübhəli şəxsin soyadı, adı, atasının adı)

____________________________________________________________

____________________________________________________________

(şübhəli şəxsin ünvanı (olduğu yer)

Azərbaycan Respublikasının __________________________________

____________________________________________________________

____________________________________________________________

(cinayət prosesini həyata keçirən orqanın adı, ünvanı, əlaqə məlumatları (indeks, telefon, faks və s.)

____________________________________________________________

____________________________________________________________

(təhqiqatçının, müstəntiqin və ya prokurorun soyadı, adı, vəzifəsi)

Şübhəli şəxs ____________________________ tarixdə ______________
(soyadı, adı, atasının adı)
________________ saatda __________ yerə gəlməyiniz xahiş olunur.*

Cinayət prosesini həyata keçirən orqana gəlməməyiniz ___________ nəticələnə bilər.

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

(şübhənin mahiyyəti)

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 150.1-ci maddəsinə əsasən cinayət işi üzrə toplanılmış sübutlar şəxsin cinayət qanununda nəzərdə tutulmuş əməli törətməsini ehtimal etməyə əsas verdikdə və bu şəxs başqa ərazidə yaşadıqda, yaxud onun olduğu yer məlum olmadıqda, müstəntiq və ya prokuror həmin şəxsin tutulması barədə qərar çıxara bilər. Cinayət prosesini

həyata keçirən orqandan gizlənən və ya çağırışa gəlməkdən qəsdən boyun qaçıran şəxsə ittiham elan etmək üçün onun tutulması haqqında qərar çıxarıldıqda, müstəntiq və ya prokuror, eyni vaxtda həmçinin həmin şəxsin axtarışını elan edir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 151.3-cü maddəsinə əsasən qətimkan tədbirinin şərtlərini pozaraq cinayət prosesini həyata keçirən orqandan gizlənən və ya çağırışa gəlməkdən qəsdən boyun qaçıran şəxsin tutulması barədə qərar çıxarıldıqda, müstəntiq və ya prokuror, eyni vaxtda həmçinin həmin şəxsin axtarışını elan edir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 178.2-ci maddəsinə uyğun olaraq Sizə xəbərdarlıq edilir ki, cinayət prosesində iştirak edən və cinayət prosesini həyata keçirən orqana çağırılan şəxs (14 yaşınadək olan şəxslər, hamilə qadınlar, ağır xəstələr istisna olmaqla) cinayət prosesini həyata keçirən orqanın məcburi çağırışına üzrlü səbəb olmadan gəlmədikdə, cinayət prosesini həyata keçirən orqanın çağırışını almaqdan boyun qaçırdıqda, cinayət prosesini həyata keçirən orqandan gizləndikdə və daimi yaşayış yeri olmadıqda həmin şəxsə məcburi gətirilmə tətbiq edilə bilər.

Çağırılan şəxs üzrlü səbəbdən çağırışa gələ bilmədikdə bu barədə dərhal cinayət prosesini həyata keçirən orqana məlumat verməli, çağırışa gəlməməsinə səbəb olan üzrlü halları təsdiq edən dəlilləri təqdim etməlidir.

Cinayət prosesini həyata keçirən orqana çağırılan şəxs şəxsiyyətini təsdiq edən sənədini təqdim etməlidir.

*Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 54-2.7-ci maddəsinə əsasən həbs yerlərində saxlanılan şübhəli və təqsirləndirilən şəxslər həbs yerinin müdiriyyəti vasitəsilə çağırılırlar.

*****Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 54-2.8-ci maddəsinə əsasən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxslər onların qanuni nümayəndələri vasitəsilə çağırılırlar.

**Qoşma:** hüquq və vəzifələrin izahına dair Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsindən çıxarış.

**İmza:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 22 aprel tarixli 223 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

**Cinayət prosesinin iştirakçılarının (təqsirləndirilən və şübhəli şəxs istisna olmaqla) və cinayət prosesində iştirak edən digər şəxslərin cinayət prosesinin həyata keçirən orqana (məhkəmələr istisna olmaqla)**

**ÇAĞIRIŞ VƏRƏQƏSİ**

Azərbaycan Respublikasının ________________________________

______________________________________________________

______________________________________________________
(cinayət prosesini həyata keçirən orqanın adı, ünvanı, əlaqə məlumatları (indeks, telefon, faks və s.)

______________________________________________________

______________________________________________________
(təhqiqatçının, müstəntiqin və ya prokurorun soyadı, adı, vəzifəsi)

______________________________________________________

______________________________________________________
(çağırış vərəqəsinin verilməli olduğu şəxsin prosessual statusu, soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin adı və yerləşdiyi ünvan)

________________________________________ tarixdə__________
(soyadı, adı, atasının adı)

____________ saatda _____________ yerə gəlməyiniz xahiş olunur.*

Cinayət prosesini həyata keçirən orqana gəlməməyiniz ___________ nəticələnə bilər.

______________________________________________________

______________________________________________________
(cinayət işinin qısa məzmunu)

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 178.2-ci maddəsinə uyğun olaraq Sizə xəbərdarlıq edilir ki, cinayət prosesində iştirak edən və cinayət prosesini həyata keçirən orqana çağırılan şəxs (14 yaşınadək olan şəxslər, hamilə qadınlar, ağır xəstələr, xüsusi ittihamçı istisna olmaqla) cinayət prosesini həyata keçirən orqanın məcburi çağırışına üzrlü səbəb olmadan

gəlmədikdə, cinayət prosesini həyata keçirən orqanın çağırışını almaqdan boyun qaçırdıqda, cinayət prosesini həyata keçirən orqandan gizləndikdə və daimi yaşayış yeri olmadıqda həmin şəxsə məcburi gətirilmə tətbiq edilə bilər.

Çağırılan şəxs üzrlü səbəbdən çağırışa gələ bilmədikdə bu barədə dərhal cinayət prosesini həyata keçirən orqana məlumat verməli, çağırışa gəlməməsinə səbəb olan üzrlü halları təsdiq edən dəlilləri təqdim etməlidir.

Cinayət prosesini həyata keçirən orqana çağırılan şəxs şəxsiyyətini və (və ya) səlahiyyətini təsdiq edən sənədi təqdim etməlidir.

*Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 54-2.8-ci maddəsinə əsasən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxslər onların qanuni nümayəndələri vasitəsilə çağırılırlar.

**Qoşma:** hüquq və vəzifələrin izahına dair Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsindən çıxarış.

**İmza:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 22 aprel tarixli 223 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

**Məhkəmə baxışında iştiraka (təqsirləndirilən şəxs istisna olmaqla)**

**ÇAĞIRIŞ VƏRƏQƏSİ**

Azərbaycan Respublikasının ________________________________

______________________________________________________

______________________________________________________

(məhkəmənin adı, ünvanı, əlaqə məlumatları (indeks, telefon, faks və s.)

______________________________________________________

______________________________________________________

(hakimin soyadı, adı)

______________________________________________________

______________________________________________________

(çağırış vərəqəsinin verilməli olduğu şəxsin prosessual statusu, soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin adı və yerləşdiyi ünvan)

______________________________________________________

______________________________________________________

(təqsirləndirilən şəxsin soyadı, adı, atasının adı)

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin _____maddəsi (maddələri) ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə məhkəmə baxışı ______________ tarixə, saat _____ təyin edilmişdir. Məhkəmə baxışında iştirak etməyiniz xahiş olunur.*

Məhkəmə baxışında iştiraka gəlməməyiniz ________________ nəticələnə bilər.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 178.2-ci maddəsinə uyğun olaraq Sizə xəbərdarlıq edilir ki, cinayət prosesində iştirak edən və cinayət prosesini həyata keçirən orqana çağırılan şəxs (14 yaşınadək olan şəxslər, hamilə qadınlar, ağır xəstələr, xüsusi ittihamçı istisna olmaqla) cinayət prosesini həyata keçirən orqanın məcburi çağırışına üzrlü səbəb olmadan gəlmədikdə, cinayət prosesini həyata keçirən orqanın çağırışını

almaqdan boyun qaçırdıqda, cinayət prosesini həyata keçirən orqandan gizləndikdə və daimi yaşayış yeri olmadıqda həmin şəxsə məcburi gətirilmə tətbiq edilə bilər.

Çağırılan şəxs üzrlü səbəbdən çağırışa gələ bilmədikdə bu barədə dərhal cinayət prosesini həyata keçirən orqana məlumat verməli, çağırışa gəlməməsinə səbəb olan üzrlü halları təsdiq edən dəlilləri təqdim etməlidir.

Məhkəmə baxışında iştirak üçün çağırılan şəxs şəxsiyyətini və (və ya) səlahiyyətini təsdiq edən sənədi təqdim etməlidir.

*Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 54-2.7-ci maddəsinə əsasən həbs yerlərində saxlanılan şübhəli və təqsirləndirilən şəxslər həbs yerinin müdiriyyəti vasitəsilə çağırılırlar.

*****Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 54-2.8-ci maddəsinə əsasən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxslər onların qanuni nümayəndələri vasitəsilə çağırılırlar.

**Qoşma:** hüquq və vəzifələrin izahına dair Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsindən çıxarış.

**İmza:**

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 22 aprel
tarixli 223 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Təqsirləndirilən şəxsin məhkəmə baxışında iştirakına dair

## ÇAĞIRIŞ VƏRƏQƏSİ

Azərbaycan Respublikasının_________________________________
____________________________________________________________
____________________________________________________________
(məhkəmənin adı, ünvanı, əlaqə məlumatları (indeks, telefon, faks və s.)
____________________________________________________________
____________________________________________________________
(hakimin soyadı, adı)
____________________________________________________________
____________________________________________________________
(təqsirləndirilən şəxsin soyadı, adı, atasının adı, ünvanı)

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin_____maddəsi (maddələri) ilə təqsirləndirilməyinizə dair cinayət işi üzrə məhkəmə baxışı______________tarixə, saat ____təyin edilmişdir.
Məhkəmə baxışında iştirak etməyiniz xahiş olunur.*

Məhkəmə baxışında iştiraka gəlməməyiniz ________________ nəticələnə bilər.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 178.2-ci maddəsinə uyğun olaraq Sizə xəbərdarlıq edilir ki, cinayət prosesində iştirak edən və cinayət prosesini həyata keçirən orqana çağırılan şəxs (14 yaşınadək olan şəxslər, hamilə qadınlar, ağır xəstələr istisna olmaqla) cinayət prosesini həyata keçirən orqanın məcburi çağırışına üzrlü səbəb olmadan gəlmədikdə, cinayət prosesini həyata keçirən orqanın çağırışını almaqdan boyun qaçırdıqda, cinayət prosesini həyata keçirən orqandan gizləndikdə və daimi yaşayış yeri olmadıqda həmin şəxsə məcburi gətirilmə tətbiq edilə bilər.
Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 467-13-cü maddəsinə əsasən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100–119, 137, 144, 145, 178, 179, 182, 193-1,

204–206, 206-1, 208, 214–219-1, 228, 274–283-1, 308–314-3, 318, 318-1, 319 və 324-cü maddələri, eləcə də həmin maddələrlə yanaşı eyni bir cinayət işi çərçivəsində cinayətlərin məcmusu üzrə həmin Məcəllənin digər maddələri ilə ittiham olunan təqsirləndirilən şəxsin Azərbaycan Respublikası ərazisindən kənarda istintaqdan və ya məhkəmədən gizləndiyi və ya çağırışa gəlməkdən qəsdən boyun qaçırdığı üçün cinayət prosesində şəxsən iştirakının təmin edilməsi mümkün olmadıqda onun barəsində cinayət təqibi qiyabi icraat qaydasında aparıla bilər.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 467-13-cü maddəsi ilə müəyyən edilmiş hallarda təqsirləndirilən şəxs barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarıla bilər.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 467-13.3-cü maddəsinə əsasən təqsirləndirilən şəxs qiyabi icraatda özünün seçimi əsasında müdafiəçi vasitəsilə təmsil olunmaq hüququndan istifadə etmək istədiyi halda, müdafiəçisi barədə məlumatları cinayət prosesini həyata keçirən orqana göndərməlidir.

Çağırılan şəxs üzrlü səbəbdən çağırışa gələ bilmədikdə bu barədə dərhal cinayət prosesini həyata keçirən orqana məlumat verməli, çağırışa gəlməməsinə səbəb olan üzrlü halları təsdiq edən dəlilləri təqdim etməlidir.

Məhkəmə baxışında iştirak üçün çağırılan şəxs şəxsiyyətini və (və ya) səlahiyyətini təsdiq edən sənədi təqdim etməlidir.

*Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 54-2.7-ci maddəsinə əsasən həbs yerlərində saxlanılan şübhəli və təqsirləndirilən şəxslər həbs yerinin müdiriyyəti vasitəsilə çağırılırlar.

*Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 54-2.8-ci maddəsinə əsasən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxslər onların qanuni nümayəndələri vasitəsilə çağırılırlar.

**Qoşma:** hüquq və vəzifələrin izahına dair Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsindən çıxarış.

**İmza:**